# 2015-ci il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## UNEC əməkdaşları TEMPUS layihəsi çərçıvəsində Avropada səfərdə olub

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Xüsusi qayğıya ehtiyacı olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üzrə fondun yaradılması" (ESFİDİP layihəsi) adlı TEMPUS layihəsi üzrə işçi qrupu Avropadan olan tərəfdaş universitetlərin müvafiq təcrübəsinin öyrənilməsi məqsədilə Avstriya, Polşa və Yunanıstanda təlim səfərində olub.

UNEC-nu Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı kafedrasının əməkdaşı Sevinc Sakmanlı Yunanıstanın Makedoniya Universitetində, Beynəlxalq əlaqələr departamentinin əməkdaşları Gülşən Vəliyeva Avstriyanın Qraz Universitetində və Bəyim Nəbiyeva Polşanın Lodz Universitetində təmsil edib.

Səfər zamanı əməkdaşlarımız xüsusi qayğıya ehtiyacı olan insanlar üçün ali təhsil müəssisələrində yaradılan mərkəzin fəaliyyəti, işçi heyətin vəzifə bölgüsü, mərkəzin universitetin əlil tələbələrinə göstərdiyi xidmətlər, reabilitasiya mərkəzi, kitabxana və auditoriyalarda əlil tələbələr üçün yaradılan şəraitlə tanış olublar. Həmçinin, əlil tələbələrin tədrisə cəlbi, onlarla işin təşkili, təcrübə proqramlarında iştirakı, tədris aldıqları müddətdə onlara göstərilən xidmətlər və s. haqqında məlumatlar əldə ediblər.

Nümayəndə heyəti Azərbaycanın Polşadakı səfirliyinin və Lodz Universitetində təhsil alan azərbaycanlı tələbələrin Xocalı soyqırımının 23-cü ildönümü münasibətilə təşkil etdikləri anım mərasimində də iştirak ediblər.

Qeyd: Azərbaycanın və Avropanın bir sıra universitetlərinin cəlb olunduğu layihədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, eləcə də yerli qeyri-hökumət təşkilatlarının nümayəndələri də iştirak edib. Layihənin icrasının növbəti mərhələsində xüsusi qayğıya ehtiyacı olan insanlar üçün UNEC-də mərkəzin yaradılması və əsasnaməsinin hazırlanması nəzərdə tutulub.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC əməkdaşları TEMPUS layihəsi çərçıvəsində Avropada səfərdə olub

## UNEC nümayəndələri TEMPUS (ESFIDIP) layihəsində iştirak edib

Azərbaycan Dövlət İqtisadi Universiteti (UNEC) Xəzər Universitetinin koordinatoru olduğu "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" TEMPUS (ESFIDIP) adlı layihəsində tərəfdaş qismində çıxış edib. Layihə çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrinin və Avropa tərəfdaşlarının iştirakı ilə görüş keçirilib. Tədbirdə UNEC-nu Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı kafedrasının

laborantı Sevinc Sakmanlı və Beynəlxalq əlaqələr departamentinin əməkdaşı Gülşən Vəliyeva təmsil edib. UNEC nümayəndələri universitetdə layihə üzrə görülən işlər barədə və növbəti illərdə həyata keçiriləcək layihələr haqqında məlumat verib. Görüşdə həmçinin yerli tərəfdaş universitetlərdə yaradılacaq mərkəzlərin əsasnaməsi, təlimatı və layihənin növbəti il üçün fəaliyyət planı müzakirə edilib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC nümayəndələri TEMPUS (ESFIDIP) layihəsində iştirak edib

## UNEC-də əlilliyi olan tələbələr üçün mərkəz yaradılıb

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Əlilliyi olan Tələbələr üçün Mərkəz yaradılıb.

Mərkəzin əsas məqsədi əlil tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Mərkəz fiziki məhdudiyyətli insanların ali təhsilə cəlb olunması, onların təhsilinə mane olan məhdudiyyətlərin aradan qaldırlması və həmin tələbələrin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində maarifləndirmə işlərini həyata keçirəcək. Həmçinin, eyni profilli mərkəzlər ilə təcrübə mübadiləsinin həyata keçirilməsi və cəmiyyətin müxtəlif təbəqələri arasında əlillik barədə maarifləndirmə işinin aparılması ilə məşğul olacaq.

Mərkəz "Xüsusi qayğıya ehtiyacı olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üzrə fondun yaradılması" adlı TEMPUS (ESFİDİP) Layihəsi çərçivəsində yaradılıb vəfəaliyyəti müxtəlif ianələr, proqramlar və layihələr tərəfindən də dəstəklənir.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-də əlilliyi olan tələbələr üçün mərkəz yaradılıb

## UNEC könüllüləri əlil tələbələrə dəstək olacaq

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Əlilliyi olan Tələbələr üçün Mərkəzin yaradılması ilə əlaqədar olaraq UNEC-in tələbələri üçün  təqdimat keçirilib.

Təqdimatda mərkəzin fəaliyyət istiqamətləri, strategiyasının iş planı və qaydaları haqqında məlumat verilib. Bildirilib ki, mərkəzin əsas məqsədi əlil tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Mərkəz əlilliyi olan şəxslərin ali təhsilə cəlb olunması, onların təhsilinə mane olan məhdudiyyətlərin aradan qaldırılması və həmin tələbələrin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində maarifləndirmə işlərini həyata keçirir. Həmçinin, eyni profilli mərkəzlər ilə təcrübə mübadiləsinin aparılması və cəmiyyətin müxtəlif təbəqələrinin əlillik barədə maarifləndirilməsi ilə məşğul olur.

Bildirilib ki, əlil tələbələrə yardım etmək məqsədilə mərkəzə könüllü tələbələr cəlb olunacaq. Könüllülərə əlillərlə davranma qayqaları haqqında təlimlər keçiriləcək.

Qeyd edək ki, bu Mərkəz "Xüsusi qayğıya ehtiyacı olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üzrə fondun yaradılması" adlı TEMPUS (ESFİDİP) Layihəsi çərçivəsində yaradılıb.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC könüllüləri əlil tələbələrə dəstək olacaq